

# İslahatlar ölkəmizi yeni inkişaf mərhələsinə çıxarıb

**Son illər ölkəmizdə keçirilən genişmiqyaslı islahatlar Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb. Eyni zamanda, idarəçilik sistemində çevikliyi gücləndirib, operativliyi daha da artırıb və müasir çağırışlara uyğunluğu təmin edib. Həyata keçirilən islahatlar idarəetmənin optimallaşdırılması ilə yanaşı, onun səmərəliliyini də artırıb. İndiyədək həyata keçirilən islahatlar nəticəsində bütün sahələrdə qazanılan uğurlar özünü açıq şəkildə büruzə verir. Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlət idarəçiliyindəki yeniləşmə ilə yanaşı, əhalinin həyat tərzinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər hər bir ölkə vətəndaşı tərəfindən rəğbətlə qarşılanır. Bütün bunların əsasını köklü islahatların həyata keçirilməsi təşkil edir.**

> ***İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, – artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, – təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

*İslahatlar yeniləşmədir*

2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində möhtərəm Prezident İlham Əliyev hər bir sahə üzrə konkret proqram və planların olduğunu, qarşıdakı dövrdə islahatların dərinləşəcəyini, institusional islahatların həyata keçiriləcəyini bəyan etmişdi. Dövlət başçısı demişdi ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik.

Ölkə başçısı əminliklə bildirmişdi ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır. Baxmayaraq ki, son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər əldə edilib, ancaq biz bununla kifayətlənməməliyik: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var".

Ölkədə sıx "Xalq-iqtidar" birliyinin olduğunu xatırladan Prezident demişdir ki, biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.

Dövlət başçısının andiçməsindən bir neçə gün sonra bu fikirlərin konkret nəticələrini özündə ehtiva edən fərmanlar imzaladığının şahidi olduq. Bu tədbirlərin davamlı olması və sistemli xarakter alması hər birmizin gözləri qarşısında baş verir. Dövlət başçısının sərəncamı ilə adı olan, lakin fəaliyyəti görünməyən qurumlar, dövlətçiliyə bu və ya digər şəkildə xidmət göstərə bilməyən strukturlar ləğv edildi. Bir sıra qurumların daxilindəki strukturlar birləşdirildi. Bu, dövlət idarəçiliyində yeniləşməyə aparan yolun başlanğıcı oldu. Bu islahatların aparılması zərurətdən yaranmışdı. Çünki Azərbaycan dinamik və hərtərəfli inkişaf edən ölkədir və bu inkişaf daha çevik struktura malik olan optimal idarəetmə tələb edirdi. İslahatlar, həmçinin əldə edilən nailiyyətlərin davamlılığının təmin edilməsində, gələcək üçün daha səmərəli şərtlər formalaşdırılmasında mühüm rol oynayır. Ona görə də bir-biri ilə paralel olan, yaxud səmərəliliyi arzu edilən səviyyədən aşağı olan struktur vahidlərinin ləğv edilməsi, birləşdirilməsi, yaxud daha çevik mexanizmlərlə əvəzlənməsi idarəetmənin aktual tələbi kimi meydana çıxmışdı. Prezident İlham Əliyevin fərmanı ilə həyata keçirilən struktur islahatları da məhz bu sahənin tənzimlənməsini təmin etdi.

*Hər bir azərbaycanlının Prezidenti*

Ölkə başçımızın respublikamıza rəhbərlik etdiyi dövrün yekunlarına nəzər salsaq, görərik ki, həqiqətən, illər öncə Prezidentin verdiyi vədlər reallığa çevrilmişdir. Bu illər ərzində hər bir azərbaycanlı özünün gündəlik həyatında dövlət başçısının diqqət və qayğısını hiss edir. Ölkə Prezidentinin elan etdiyi prioritetlərin sürətlə reallaşdırılması, qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi, iri infrastruktur, xüsusilə sosial layihələrin gerçəkləşdirilməsi, islahatların dönməz xarakter alması və indiyədək qazanılan uğurların miqyasının daha da genişlənməsi onun "hər bir azərbaycanlının Prezidenti" olduğunu bir daha təsdiqləyir.

Hər bir azərbaycanlının gələcəyini düşünmək, onlarla maraqlanmaq, ciddi tədbirlərin görülməsi üçün fərman və sərəncamlar imzalamaq, əhalinin rifahının daha da yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlamaq, buna nail olmaq humanist liderimizin malik olduğu əsas insani keyfiyyətlərdir. Dövlət başçısının 25 fevral 2019-cu ildə imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam, xüsusilə, qeyd edilməlidir. Çünki həmin sərəncamla əhalinin bütün aztəminatlı təbəqəsi, o cümlədən, veteranlar, əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, eləcə də I qrup əlillərə xidmət göstərənlərin maddi vəziyyəti daha da yaxşılaşdırıldı.

Dövlət başçısının idarəçiliyin təkmilləşdirilməsi, yeniləşdirilməsi istiqamətində atdığı qətiyyətli addımlar da rəğbətlə qarşılandı. Bu baxımdan, "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 14 yanvar tarixli Fərman mühüm əhəmiyyət kəsb edir. Bu fərmandan irəli gələn vəzifələr həm dövlət quruculuğu kursunun inkişaf etdirilməsi çərçivəsində, həm də idarəetmədə aparılan islahatların Azərbaycanın beynəlxalq aləmdə imicinin formalaşması baxımından təqdirəlayiqdir.

Həyata keçirilən islahatlar nəticəsində Prezident Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis tamamilə yenidən formalaşıb, gənclərə böyük etimad göstərilib. Məhkəmə-hüquq sahəsində də heç şübhəsiz ki, islahatlara ehtiyac duyulurdu. İslahatlar prosesi bu sahədən də kənarda qala bilməzdi. Əslində, zaman-zaman məhkəmə-hüquq sistemində islahatlar aparılmışdı, ancaq dövrün tələblərinə və reallıqlarına uyğun olaraq, islahatların yeni mərhələsinə zərurət yaranmışdı. Ölkə Prezidentinin Azərbaycan xalqına Novruz bayramı münasibətilə ünvanladığı təbrikində də bu istiqamətdə islahatların anonsu verilmişdi: "İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar davam etdiriləcək, artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır".

Hər zaman verdiyi sözə, vədinə sadiq olan dövlət başçısı məhkəmə-hüquq, prokurorluq sistemində də islahatların aparılması ilə bağlı fərman verdi. Artıq bunun müsbət nəticələrini görürük.

İnsanlar vəzifəyə irəli çəkiləndə hansı siyasi partiyaya mənsubluq önə çəkilmir. İstedadlı, qabiliyyətli, idarəetmədə səriştəsi, dünyada baş verən hadisələrə adekvat münasibət göstərən kadrlara daha çox etimad göstərilir. Bunu yeni formalaşan Milli Məclisdə Sədrin müavinlərindən birinin müxalifətin, digərinin isə bitərəflərin təmsilçisi olması da təsdiqlədi. Bundan əlavə, parlamentin komitə sədrlərinin və müavinlərinin də bitərəflərdən və müxalifət partiyası təmsilçilərindən seçilməsi Prezident İlham Əliyevin 2003-cü ildə prezident seçildikdən sonra andiçmə mərasimindəki nitqində səsləndirdiyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam!" – fikrinin əyani təzahürüdür. Hər kəs bunun şahididir ki, cənab İlham Əliyev bütün azərbaycanlıların, eyni zamanda, ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın da Prezidentidir. Bunu hər bir Azərbaycan vətəndaşı görür və yüksək qiymətləndirir.

*Yeni simalara ehtiyac...*

Ölkədə aparılan kadr islahatları özünü doğruldur. Azərbaycanda idarəetmə sistemi hazırda kadr islahatları mərhələsindədir. Bu, həyata keçirilən islahatların növbəti keyfiyyət mərhələsi kimi qiymətləndirilməlidir. Kadr islahatlarını zəruri edən şərtlər artıq formalaşmışdı və bu, indiyə qədər həyata keçirilən islahatların nəticəsində mümkün olub. Daha səmərəli kadrlara ehtiyac yaranmışdı. Çünki struktur islahatları nəticəsində yeni idarəçilik sistemi formalaşmışdır. Bu baxımdan, idarəetmənin effektivliyini təmin etmək üçün hərtərəfli biliyə, geniş dünyagörüşünə malik kadrlara ehtiyac yaranmışdı. Eyni zamanda, Azərbaycanda idarəetmə sistemi tarixində yeni nəsil dəyişməsinin baş verməsi prosesi yetişmişdi. Köhnə təfəkkürlə işləyənlərdə mühafizəkarlıq, lənglik hələ də özünü büruzə verirdi. Bu da yeni idarəetmə sistemi ilə uyğunsuzluq təşkil edirdi. Ona görə də vaxtaşırı milli inkişafı təmin etmək üçün kadr islahatlarının aparılması vacib şərt kimi ortaya çıxırdı. Bu proses təkcə indiki tarixi mərhələdə keyfiyyət dəyişikliyi yaratmaqla kifayətlənmir, gələcək mərhələnin də inkişafını təmin etmək üçün fundamental əsaslar yaradır.

Azərbaycanda idarəetmə aparatında islahatların aparılması, eləcə də çevik idarəetmənin formalaşması prosesi davam etdirilir. Bu gün struktur və kadr islahatları mövcud çağırışlara uyğundur və zamanın tələbidir. Bütün bunlara baxmayaraq, yaşlı nəsil nümayəndələri arasında da zəngin təcrübəyə malik olanlar var. Onların təcrübəsindən istifadə edilməlidir. Dövlət başçısı da çıxışlarında, əhali ilə keçirdiyi görüşlərdə kadr islahatlarının vacibliyini, yeni simalara ehtiyac olduğunu vurğulayıb: "Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır. Eyni zamanda, mən onu da bildirməliyəm ki, biz nəsillər arasında ziddiyyətlərə yol verə bilmərik. Çünki bu, hər bir cəmiyyətdə var. Yaşlı nəsildən olan bir çoxları həmişə gənc nəsildən narazıdır. Ona görə biz bunu başa düşməliyik. Nəsillər arasındakı anlaşılmazlıq hər bir cəmiyyətdə var. Amma bizim cəmiyyət mühafizəkar cəmiyyətdir, konservativ cəmiyyətdir və ənənəvi dəyərlər üzərində qurulmuş cəmiyyətdir. Biz, əlbəttə, imkan verə bilmərik ki, bu təbii ziddiyyətlər hansısa böyük bir problemə çevrilsin. Ona görə, mən demişəm və mən gəncləri işə fəal cəlb etməyə başlayanda, gördüm ki, yaşlı nəslə qarşı elə bil hansısa bir kampaniya aparılır. Onu da mən dayandırdım. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti bizə xeyir gətirəcək".

İnkişaf etmiş dövlətlərin təcrübəsi də göstərir ki, cəmiyyət həyatının istənilən sahəsində inkişafın, fəaliyyət dinamizminin və ahəngdarlığının təmin edilməsi üçün yeni yanaşmaların tətbiqinə, zamanın nəbzini tutan islahatların həyata keçirilməsinə böyük ehtiyac var. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın nail olduğu və daim yüksələn xətlə artan inkişaf göstəriciləri siyasi, sosial-iqtisadi, mədəni-humanitar, kadrların seçilib yerləşdirilməsi sahələrində aparılan səmərəli, ardıcıl və sistemli islahatların uğurlu nəticəsidir. Dövlət başçısının elan etdiyi prioritetlərin sürətlə reallaşması islahatların yeni mərhələyə qədəm qoyması və indiyədək qazanılan uğurların miqyasının daha da genişlənməsi ilə əlamətdardır.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***